Qələbələrimiz davamlıdır

Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi ötən dövrün nailiyyətlərinə əsaslanan inkişaf strategiyasının yol xəritəsi, dəyişən və dərinləşən ziddiyyətlər fonunda ölkəmizin artan nüfuzunun göstəricisi kimi bütövlükdə regionun geosiyasi gündəliyi hesab oluna bilər.

Cənab Prezidentin müsahibəsində aydın şəkildə ifadə olunur ki, Azərbaycanın qlobal miqyasda lider kimi özünütəsdiqinin təməlində milli səviyyədə qazanılan uğurlar dayanır. Bu mənada, ümumdaxili məhsulun 4 faizdən çox artımı, qeyri-neft sektorunun inkişafının 6 faizdən, sənaye istehsalının, xüsusən qeyri-neft sənaye sektorunda parametrlərin isə 7 faizdən çox yüksəlişi, tarixi bir dönəmi və uğurlu ili arxada qoymağımız deməkdir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının müdafiə və təhlükəsizlik qabiliyyətinin artırılmasına yönəlik xərclərin çoxalması və işğaldan azad olunmuş ərazilərimizin bərpasına əsaslı vəsaitin ayrılmasına baxmayaraq, kifayət qədər mürəkkəb bir dövrdə - 2024-cü ildə valyuta ehtiyatlarımızı 5 milyard dollardan çox artıraraq 72 milyard dollara çatdırmışıq. Məlumdur ki, valyuta ehtiyatlarının hesablanması adambaşına düşən ehtiyatlara söykənməlidir və möhtərəm Prezident də məhz bu göstəriciyə əsaslanaraq, ölkəmizin dünyada aparıcı dövlətlər sırasında olmasının müjdəsini verdi.

Ötən dövrdə Azərbaycan Respublikasının xarici borcunun azaldılması tendensiyası davam etmiş, əksər inkişaf etmiş ölkələrdə bu statistika 100 faizi ötsə də, ölkəmizdə xarici borcun miqdarı ümumdaxili məhsulun cəmi 7,2 faizini təşkil etmiş, valyuta ehtiyatlarımız isə xarici borcları 14 dəfə üstələmişdir. Bu gün dünyada ortaya uğur hekayəsi qoyan Azərbaycan bu nailiyyətlərini yalnız və yalnız daxili resurslar hesabına, şəffaf idarəetmə və düzgün iqtisadi siyasət nəticəsində əldə edə bilib. Cənab İlham Əliyevin rəhbərliyi ilə artan iqtisadi imkanlar isə ölkədə sosial sferaya diqqətin daha da artırılmasına, insanların sosial rifahının layiqli səviyyədə təmin olunması istiqamətində konstitusion niyyətlərin realizəsinə daha effektiv yanaşmanı təmin etmişdir.

(davamı 3-cü səhifədə)

Qələbələrimiz davamlıdır

(əvvəli 1-ci səhifədə)

Cənab Prezidentin ifadə etdiyi kimi, bu il yanvarın 1-dən minimum əməkhaqqı 55 manat artaraq 400 manata, minimum pensiya isə 40 manat artaraq 320 manata çatmış, digər çoxsaylı xərclərə və qarşıda duran başqa önəmli problemlərə baxmayaraq, sosial müdafiə sferasında orta hesabla artım 15 faizi üstələmişdir. Bu isə müstəqil Azərbaycanın tarixində ən ciddi sosial həmlənin ehtiva olunduğu yeni mərhələnin başlanılmasının göstəricisidir.

Əlbəttə, əldə olunan ciddi sosial iqtisadi nəticələr, habelə hərbi-siyasi imkanların artması dövlətimizin beynəlxalq nüfuzuna da köklü təsir göstərmiş, xüsusən cənab İlham Əliyevin liderliyində ifadə olunan və beynəlxalq hüququn aliliyini rəhbər tutan aydın mövqe ötən dövr ərzində Azərbaycanın qlobal mövqeyini gücləndirmişdir. Bu çərçivədə 2024-cü il üzrə diqqətə alınacaq əsas geosiyasi hadisə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına Azərbaycanın uğurla ev sahibliyi etməsi oldu. Dövlət başçımızın da qeyd etdiyi kimi, "bizim üçün COP29 böyük bir çağırış və böyük imkan idi. Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi". Əvvəlki dövrlərdə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü, Qoşulmama Hərəkatının dörd illik sədri qismində uğurlu təcrübəsi, Avroviziya, İslam Həmrəyliyi Oyunları, Avropa Oyunları kimi beynəlxalq və regional miqyasda tədbirləri uğurla realizə etməsi ölkəmizə COP29-u da uğurlu platformaya çevirməyə imkan verdi. Xüsusən, iqlim maliyyələşməsi və Paris Sazişinin karbon bazarları üzrə 6-cı maddəsi istiqamətində əldə olunan ciddi nailiyyətlər sayəsində Azərbaycan qlobal iqlim dəyişiklikləri üzrə mübarizədə yeni tarix yazdı. COP29, eyni zamanda Azərbaycana qarşı çoxsaylı qərəz və böhtanlarla mübarizədə uğurlu platformaya çevrildi.

Liderlər Sammitinin açılış mərasimində möhtərəm Prezidentin kifayət qədər qətiyyətli bəyanatı, çoxsaylı maneə cəhdlərinə baxmayaraq, tədbirin uğurla yekunlaşması Azərbaycanın qlobal miqyasda daha bir qələbəsi oldu. Möhtərəm Prezidentin müsahibəsində digər mühüm aspekt Azərbaycanın beynəlxalq miqyasda qələbələri ilə bağlı oldu və həqiqətən də ötən ilin xronikasına nəzər salsaq, siyasi qələbələrin miqyasca hərbi qələbələrdən geri qalmadığına şahidlik edərik. Bu qələbələr bir tərəfdən Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü aspektindən, digər tərəfdən isə çoxsaylı hücumların neytrallaşması baxımından həlledici önəmə malikdir. Məhz hərbi-siyasi zəfərlərin yaratdığı bu konfiqurasiya monoloq yolu ilə Qazaxın 4 kəndini bir güllə atmadan azad etməyə, habelə sərhədlərin delimitasiya və demarkasiyası üzrə önəmli və unikal nəticələrdə ehtiva olunan situasiya formalaşdırmağa imkan yaratdı. Lakin cənab İlham Əliyevin ötən ilin son günü, 31 Dekabr - Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycana xalqına müraciətində də narahatlığını ifadə etdiyi kimi, Ermənistanın sürətlə silahlandırılması və İrəvanın bu prosesə həvəslə alət olması göstərir ki, qərb qonşumuz reallıqlarından hələ də ciddi nəticələr çıxara bilmir.

Cənab İlham Əliyev yerli televiziyalara müsahibəsində bu məsələyə bir daha toxunaraq İkinci Qarabağ müharibəsi və antiterror tədbirlərinin nəticələrinin ciddi qəbul edilməli olduğunu xüsusi vurğuladı və bir daha xəbərdarlıq etdi ki, Ermənistanda silahlanma prosesi Cənubi Qafqaz üçün yeni təhdid amili olduğu üçün biz sadəcə müşahidəçi kimi qala bilmərik. Dövlət başçısı Ermənistan rəhbərliyinə açıq formada xəbərdarlıq edərək onları Azərbaycana qarşı provakasiyalara təhrik edənlərin onların arxasında dayanmayacağını və Azərbaycanın da buna imkan verməyəcəyini rəsmən bəyan etdi.

Təəssüf doğuran məqamdır ki, Ermənistan reallıqlardan nəticə çıxarmağı bacarmır, yaxud buna istəkli deyil. Bu ölkə Qərbin regionda sabitlik yaratmaq niyyətində olmadığını ya dərk etmir, ya da özü revanşist niyyətlərdən əl çəkə bilmədiyi üçün bu niyyətlər üst-üstə düşür. Möhtərəm Prezident məhz tutduqları adekvat mövqe nəticəsində həm Avropa Komissiyasının, həm də ABŞ-ın Azərbaycan-Ermənistan normallaşma prosesindən kənarlaşdırıldığını və bizim ikitərəfli danışıqlar formatının tərəfdarı olduğumuzu bəyan etdi. Azərbaycan Prezidenti bir daha sülh niyyətini ortaya qoydu, lakin Ermənistanın faşist mahiyyətini yeni təhdidlər yarada biləcəyi ehtimallarını gözardı etməyəcəyini bildirərək hərbi və təhlükəsizlik sahəsində müvafiq addımların qətiyyətlə atılacağını bildirdi. Üstəlik, proseslərin gedişatı da göstərməkdədir ki, zaman Azərbaycanın lehinə işləyir və geosiyasi konfiqurasiya Azərbaycanın uzaqgörənliklə müəyyən etdiyi gündəliklə üst-üstə düşür. Azərbaycan ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi özünün konstitusion niyyətlərindən biri kimi müəyyən edib. Biz həmişə başqa dövlətlərlə münasibətlərimizi beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplər əsasında qurmağa üstünlük vermişik. İstər ulu öndərin, istərsə də möhtərəm Prezidentin hakimiyyəti illərində dövlətin xarici siyasət kursunun əsas istiqamətləri beynəlxalq hüququn aliliyinin təmin olunmasına yönəlib və ötən dövr ərzində bütün mübarizə tariximiz, o cümlədən Vətən müharibəsi və antiterror tədbirlərindəki uğurlarımızın son nəticədə hədəfi beynəlxalq hüququn aliliyində ifadə olunub.

Lakin təəssüflər olsun ki, beynəlxalq hüququn ayrılmaz elementi olan demokratiya və insan haqları tandemləri bir çox qlobal güclər tərəfindən məkrli və təcavüzkar niyyətlərin həyata keçirilməsi naminə pərdə kimi istifadə edilib. O cümlədən ABŞ-ın Soros hakimiyyəti, Fransa, Kanada kimi bir sıra avrostrukturlar prosesdə xüsusi rol oynamışdır. Həmin dövlətlər açıq formada nümayiş etdirmişlər ki, Cənubi Qafqaz regionunda dövlətlərin müstəqil davranışı onların maraqları üçün təhdiddir və bölgədə hər hansı dövlətin güclənməməsi, suveren imkanlara malik olmaması üçün regionda münaqişələrin mövcudluğu şərtdir. Lakin cənab İlham Əliyevin ulu öndərin siyasi kursuna əsaslanan qətiyyətli siyasəti ölkəmizin siyasi və iqtisadi müstəqilliyini bərqərar etməsi, güclü ordu quruculuğu və müdafiə sənayesinin inkişafı Azərbaycana müstəqil hərbi-siyasi güc kimi davranmağa imkan verdi. Bir çox Qərb dövlətlərinin açıq şəkildə müdafiə etməsinə baxmayaraq, Azərbaycan Ermənistanın timsalında bütövlükdə şər blokuna qalib gələrək regionda işğala, təcavüzə və separatizmə son qoydu. Vətən müharibəsi və antiterror tədbirlərindən sonrakı dövrdə Azərbaycan əleyhinə bir çox formalarda başlanan qərəz, böhtan dolu kampaniyalara və siyasi hücumlara rəğmən bu siyasi mübarizədən və informasiya müharibəsindən də qalib çıxdı. Nəticədə istər Fransa, istər ABŞ-nin Soros hakimiyyəti, istərsə də regionda qeyri-adekvat maraqlara söykənən digər güclər tam şəkildə fiaskoya uğradılar.

Əlbəttə, Azərbaycan digər dövlətlərin daxili yurisdiksiyasında olan məsələlərə qarışmaq niyyətində deyil və o qənaətdəyik ki, hər hansı ölkədə hakimiyyətin dəyişməsi yalnız xalqın iradəsi ilə baş tutur, lakin Kanadanın timsalında aydın formada görürük ki, Azərbaycan əleyhinə güc və imkanlarını səfərbər etmiş bir sıra güclər əslində müstəqil deyil, aid olduğu ölkənin, xalqının iradəsini təmsil etmir. Piramidaya bənzər bu sistemdə isə yerindən qopan istənilən kərpic bütövlükdə piramidanın özünün dağılmasına gətirib çıxarır. Bu mənada, beynəlxalq hüquqa, ədalətə, vicdana söykənməyən və qlobal miqyasda təcavüzkar niyyətlərin daşıyıcısı olan sistemlərin çöküşü labüd idi. ABŞ-ın Soros hakimiyyətinin, marionet Kanadanın mövqeyi aydın olmayan baş nazirinin, habelə Makron hakimiyyətinin fiaskosu beynəlxalq hüququn təntənəsi hesab edilməli, daim səmimi mövqe ortaya qoyan və real nəticələr yaradan Azərbaycan kimi dövlətlərin isə qələbəsi sayılmalıdır.

Artıq Fransa Makronun özünün dilindən dolayısı ilə Azərbaycan qarşısında aciz qaldığını etiraf etməkdədir və Azərbaycana qarşı cəfəng ittihamların kökündə də məhz bu dayanır. Cənab İlham Əliyev də bu situasiyaya uyğun ritorika ilə Fransa prezidentinin cavabını verdi və bildirdi ki, "mən hesab edirəm ki, əgər biz o qədər güclənmişik ki, Fransanın daxili işlərinə qarışa bilək və nəyisə dəyişə bilək, biz sadəcə olaraq bununla fəxr edə bilərik". Fransa prezidentini narahat edən məqamlardan biri Azərbaycanın Fransanın müstəmləkə siyasəti qarşısında qətiyyətlə çıxış etməsi məsələsi cənab Prezidentin müsahibəsinin xüsusi elementlərindən birinə çevrildi və dövlət başçısı ölkəmizin bu prosesdə mövqeyini birmənalı olacağını rəsmən bəyan etdi. Bu isə o deməkdir ki, Azərbaycan yalnız regionda yox, bütövlükdə qlobal müstəvidə təsirli beynəlxalq subyekt kimi çıxış etməkdə və yeni yaranan qlobal nizamda aktiv rol almaqdadır. Dünyanın diqqətinin Yaxın Şərqdə, xüsusən Bəşər Əsəd sonrası Suriyada olduğu məqamda cənab İlham Əliyevin bu məsələyə dair mövqe bildirməməsi, təbii ki, təəccüblü olardı. Xüsusən, Cənubi Qafqaz kimi həssas geosiyasi bölgədə əsas hərbi-siyasi güc kimi çıxış edən, o cümlədən istər İslam dünyasında, istər digər çoxsaylı platformalarda aparıcı mövqeyini gücləndirməkdə olan bir ölkənin liderinin bu mövzuda mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən də maraqla gözlənməkdə idi. Cənab İlham Əliyevin bu mövzuda yanaşması kifayət qədər korrekt və sadə oldu. Hakimiyyəti dövründə hər zaman Ermənistanın yanında olan, bu ölkə ilə Azərbaycana qarşı birləşən bir rejimin çöküşü və bu fonda Suriyadakı dəyişikliklər həm Türkiyə, həm də Azərbaycan aspektindən Bakıda məmnunluqla qarşılanıb. Suriya rejimi ilə sıx təmasda olan Ermənistandan fərqli olaraq Azərbaycanın 12 il ərzində Suriya ilə heç bir əlaqəsi yox idi və münasibətlərin normallaşması istiqamətində heç bir perspektiv görünmürdü. Yeni dönəmdə isə Azərbaycan artıq Türkiyə ilə birlikdə, o cümlədən Yaxın Şərqdə yeni nizamın formalaşmasında iştirak edəcək və bu, ölkəmizin məhz Liderinin vizionu ilə qlobal oyunçuya çevrildiyini göstərir.

Reallıqların təməlində isə sadə bir həqiqət dayanır. Dövlət başçısının özünün də müsahibədə ifadə etdiyi kimi, "Mən bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram". Məhz bu sadə prinsipə əsaslanan, xalq-iqtidar birliyindən qaynaqlanan siyasət 31 il əvvələ qədər dağılmaq təhlükəsində, parçalanmaqda olan Azərbaycan dövlətçiliyinin bu gün özünün ən qüdrətli tarixi dövrünə qədəm qoymasına gətirib çıxarıb. Azərbaycan Respublikası məhz bu reallıqların əsasında tarixinin ən böyük hərbi-siyasi zəfərlərini qazanıb və cənab Prezidentin müsahibəsinin ritorikasına da diqqət etsək, qələbələrimizin davamlılığına inam yaranır.

Bəhruz MƏHƏRRƏMOV,
millət vəkili.